# Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə 1 iyun 2025-ci il tarixində *dt* və *tc* altqruplarının hər ikisini seçən abituriyentlər üçün 3-cü ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında coğrafiya fənnindən istifadə olunan test tapşırıqlarının izahı

## Coğrafiya

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.




a. Cənub-Şərqi və Şərqi Asiyada daha geniş ərazilərdə yayılmışdır.
b. İl boyu bu meşələrə 2000-3000 mm yağıntı düşür.
c. Burada məskunlaşan əhali demoqrafik keçidin I mərhələsindədir.
d. Tropik işıqlanma qurşağında yerləşir.
e. Ərazisində suvarma şəraitində çəltikçilik inkişaf etmişdir.

A) I – a, e; II – b, c; III – d
B) I – a, e; II – d; III – b, c
C) I – a, c; II – b, d; III – e
D) I – b; II – d, e; III – a, c
E) I – c, d; II – a, b; III – e

***Mövzu:*** Biosfer, coğrafi təbəqə, təbii zonalar, onlardan istifadə
***Sinif:*** 9, 11
***Alt-standart:*** 2.1.3.; 2.1.7.; 3.2.2.
***İzah:*** Musson meşələri Şimal yarımkürəsində qitələrin şərqində yerləşir. Burada iqlim şəraitinin əlverişli olması kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına səbəb olmuşdur. Qışın quraq keçməsi suvarma əkinçiliyini zəruri edir. Nəticədə burada suvarma şəraitində çəltikçilik inkişaf etmişdir. Ekvatorial enliklərə il ərzində 2000-3000 mm və daha çox yağıntı düşür. Demoqrafik keçidin I mərhələsi yüksək doğum, yüksək ölüm və təbiətdən asılılığın güclü olması ilə seçilir. Bu səbəbdən Amazon və Konqo hövzələrinin rütubətli ekvatorial meşələrində yaşayan insanlar hələ də demoqrafik keçidin I mərhələsindədirlər. Ekvatorial meşələr bütünlüklə, musson meşələrin isə bir hissəsi tropik işıqlanma qurşağında yerləşir.
***Doğru cavab:*** I – a, e; II – b, c; III – d

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Eyni ölkəyə aid ***olmayan*** limanları müəyyən edin.

A) Boston, Nyu-York, Yeni-Orlean
B) Novorossiysk, Sankt-Peterburq, Vladivostok
C) İzmir, İstanbul, Ceyhan
D) Marsel, Hamburq, Genuya
E) Kobe, Naqoya, İokaqama

***Mövzu:*** Dünya nəqliyyatı və beynəlxalq iqtisadi əlaqələr
***Sinif:*** 10
***Alt-standart:*** 3.2.3.
***İzah:*** Marsel-Fransa, Hamburq-Almaniya, Genuya-İtaliyanın sahillərində yerləşir.
***Doğru cavab:*** Marsel, Hamburq, Genuya

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Ölkənin ÜMM-nin dəyəri 360 mlrd. dollar, ÜDM-in dəyəri 420 mlrd. dollardır. Ölkə şirkətlərinin xaricdə yaratdığı məhsulun dəyəri 66 mlrd. dollar olarsa, xarici şirkətlərin bu ölkə daxilində yaratdığı məhsulun dəyəri ÜDM-nin neçə faizini təşkil edər?

A) 44 B) 25 C) 30 D) 35 E) 40

***Mövzu:*** Dünya iqtisadiyyatının ümumi coğrafi səciyyəsi
***Sinif:*** 8, 11
***Alt-standart:*** 3.2.3.; 3.2.4.
***İzah:*** ÜMM-milli şirkətlərin ölkə daxilində və ölkə xaricində istehsal etdiyi məhsul və xidmətlərin dəyəridir.
ÜDM-ölkə daxilində milli və xarici şirkətlərin istehsal etdiyi məhsul və xidmətlərin dəyəridir.
Məsələnin şərtinə əsasən ÜMM-un dəyəri 360 mlrd. dollar, ölkə şirkətlərinin xaricdə yaratdığı məhsulun dəyəri 66 mlrd. dollardır. Ölkə daxilində milli şirkətlərin məhsul dəyərini hesablayaq:
360-66=294 mlrd. dollar
ÜDM-in dəyəri 420 mlrd. dollardır. Xarici şirkətlərin payını hesablayaq:
420-294=126 mlrd. dollar
420-----100%
126------x %
x=126x100:420=30%
***Doğru cavab:*** 30

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Xəritə-sxemə əsasən, A–B profilini müəyyən edin.







A) II B) V C) III D) IV E) I

***Mövzu:*** Azərbaycan respublikasının relyefi

***Sinif:*** 10

***Alt-standart:*** 2.1.1.

***İzah:*** Kiçik Qafqaz dağlarında yerləşən Qarabağ vulkan yaylasının ən hündür zirvəsi Dəlidağ (3616 m) A məntəqəsinə, Dərələyəz silsiləsinin ən hündür zirvəsi Küküdağ (3120 m) isə B məntəqəsinə uyğun gəlir. Bu zirvələrin hündürlüyünü bilməklə A–B profilini xəritə üzərində yerini təyin etmək olur.

***Doğru cavab:*** IV

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Cədvələ əsasən respublikamızda qış otlaqlarının yayıldığı məntəqəni müəyyən edin.

| Məntəqə | Orta illik temperatur | Rütubətlənmə əmsalı ($R.ə.=\frac{Y}{B}$) |
|---|---|---|
| 1 | –5°C | 0,5 |
| 2 | +14°C | 0,3 |
| 3 | +25°C | 1,7 |
| 4 | +5°C | 2,5 |
| 5 | –10°C | 0,2 |

A) 2 B) 5 C) 1 D) 4 E) 3

***Mövzu:*** Azərbaycan Respublikasının kənd təsərrüfatı

***Sinif:*** 10

***Alt-standart:*** 3.2.3.; 3.2.4.

***İzah:*** Respublikamızda qış otlaqlarının geniş yayıldığı ərazilər Kür dağarası çökəkliyi fiziki-coğrafi vilayətində yayılmışdır. İqlim göstəricilərinə əsasən orta illik temperatur +14°C, yağıntıların orta illik miqdarı 200-400 mm, buxarlanma qabiliyyəti 1200 mm, rütubətlilik əmsalı 0,3-dür.

***Doğru cavab:*** 2

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

Xəritə-sxemə əsasən müvafiq bitkiçilik sahələrinin inkişaf etdiyi ölkələri müəyyən edin.




I. Kartof
II. Qəhvə
III. Çay

A) I – 4; II – 3; III – 5 B) I – 2; II – 4; III – 3
C) I – 1; II – 5; III – 2 D) I – 3; II – 1; III – 5
E) I – 1; II – 2; III – 4

***Mövzu:*** Dünyanın kənd təsərrüfatı

***Sinif:*** 10

***Alt-standart:*** 3.2.4.

***İzah:*** Kartof-ABŞ; qəhvə-Braziliya; çay-Şri-Lankada inkişaf etmişdir.

***Doğru cavab:*** I – 1; II – 5; III – 2

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Doğru ***olmayan*** coğrafi ifadələri müəyyən edin.

1. Dunay və Kolıma çaylarının su sərfi yaz aylarında çoxalır.
2. Mekonq çayının hövzəsi iki işıqlanma qurşağında yerləşir.
3. Ladoqa gölü mülayim işıqlanma qurşağında yerləşir.
4. Balxaş gölü iki türkdilli dövlətin ərazisində yerləşir.
5. Tanqanika gölü platformanın əyilmə zonasında yerləşir.
6. Afrikanın çaylarının çox hissəsi Hind okeanı hövzəsinə aiddir.

A) 1, 3, 6 B) 4, 5, 6 C) 3, 4, 5
D) 2, 4, 5 E) 1, 2, 6

***Mövzu:*** Quru suları

***Sinif:*** 9

***Alt-standart:*** 2.1.6.

***İzah:*** Dünyanın siyasi xəritəsinə əsasən Balxaş gölü Qazaxıstanın ərazisində yerləşir. Afrikanın ən dərin gölü olan Tanqanika Şərqi Afrika tektonik qırılma zonasında yerləşir. Afrikanın relyefindən asılı olaraq ən iri çaylar Atlantik okeanının hövzəsinə aiddir.

***Doğru cavab:*** 4, 5, 6

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Şərti işarələrin aid olduğu faydalı qazıntılar və bu ehtiyatlarla daha zəngin olan müvafiq ölkələr:



A) Civə, neft, mis; Əlcəzair, İran, CAR
B) Qalay, dəmir filizi, fosforit; Tailand, Braziliya, Mərakeş
C) Platin, titan, qurğuşun; Avstraliya, Hindistan, Braziliya
D) Volfram, dəmir filizi, kükürd; Malayziya, Əfqanıstan, Nepal
E) Qalay, dəmir filizi, xromit; Braziliya, Avstraliya, Argentina

***Mövzu:*** Təbii ehtiyatlar və onlardan istifadə
***Sinif:*** 8
***Alt-standart:*** 3.2.3.; 3.2.4.
***İzah:*** Şərti işarələrə əsasən *qalay ehtiyatları* Cənub-Şərqi Asiyada Tailand, Malayziya; *dəmir filizi* Braziliya, Avstraliya, Hindistan; *fosforit* Şimali Afrikada Mərakeşdə yayılmışdır.
***Doğru cavab:*** Qalay, dəmir filizi, fosforit; Tailand, Braziliya, Mərakeş

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

1. Qazaxıstan
2. Estoniya
3. Özbəkistan

a. Ərazisi iki qitədə yerləşir.
b. Pambıqçılığın inkişafı üçün əlverişli təbii şəraitə malikdir.
c. Əhalisi türk dil qrupunun qıpçaq qoluna aiddir.
d. Mərkəzi Asiyada əhalisi ən çox olan türkdilli dövlətdir.
e. Əhalisi Ural dil ailəsinə aiddir.

A) 1 – d, e; 2 – b; 3 – a, c  B) 1 – a, d; 2 – e; 3 – b, c
C) 1 – c; 2 – a, e; 3 – b, d  D) 1 – a, c; 2 – e; 3 – b, d
E) 1 – b, d; 2 – a, e; 3 – c

***Mövzu:*** Dünya ölkələrinin inkişaf xüsusiyyətləri (inkişaf etmiş və inkişaf etməkdən olan ölkələr)
***Sinif:*** 7 və 11
***Alt-standart:*** 3.2.3.
***İzah:*** Qazaxıstan-Avropa və Asiya qitələrində yerləşir, Əhalisi türk dil qrupunun qıpçaq qoluna aiddir. Estoniyanın əhalisi Ural dil ailəsinə aiddir. Özbəkistanda pambıqçılıq inkişaf etmişdir, Mərkəzi Asiyada yerləşən türkdilli dövlətlə müqayisədə əhalisi çoxdur.
***Doğru cavab:*** 1 – a, c; 2 – e; 3 – b, d

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Xəritə- sxemdə rəqəmlərlə göstərilən çayları və onlara uyğun qida mənbələrini müəyyən edin.




A) 2-Köndələnçay – yağış suları; 3-Samur – qar və buzlaq suları
B) 1-Naxçıvançay – yağış suları; 2-Həkəri – yeraltı sular
C) 4-Göyçay – yeraltı sular; 5-Pirsaat – qar suları
D) 5-Pirsaat – yağış suları; 6-Köndələnçay – yeraltı sular
E) 3-Qusarçay – qar və buzlaq suları; 6-Qarqar – yeraltı sular

***Mövzu:*** Azərbaycanın daxili suları
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.5.
***İzah:*** Xəritə-sxemə əsasən rəqəmlərə aid olan çayların adı və onların əsas qida mənbəyi aşağıdakı kimidir: 1-Naxçıvançay-yeraltı su; 2-Köndələnçay-yağış suları; 3-Samur – qar və buzlaq suları***;*** 4-Türyançay-yeraltı sular; 5-Pirsaat – yağış suları; 6-Qarqar – yağış suları.
***Doğru cavab:*** 2-Köndələnçay – yağış suları; 3-Samur – qar və buzlaq suları

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

Qərbi Avropa ölkələrinin iqtisadi-coğrafi mövqeyini səciyyələndirən əlamətlər:

1. Region ölkələrinin bir-biri ilə sıx qonşuluq mövqeyinin olması
2. Bütün ölkələrin Dünya okeanına birbaşa çıxışının olması
3. Mühüm dəniz və quru ticarət yollarının yaxınlığında yerləşməsi
4. Şərqi Avropa ölkələri ilə qonşuluq mövqeyinin olması
5. Region ölkələrinin hamısında hasilat sənayesinin inkişaf etməsi

A) 2, 4, 5  B) 1, 3, 4  C) 2, 3, 5
D) 1, 2, 4  E) 1, 3, 5

***Mövzu:*** Dünyanın siyasi xəritəsi
***Sinif:*** 7, 9
***Alt-standart:*** 3.2.1.; 3.2.2.
***İzah:*** Qərbi Avropa ölkələri bir-biri ilə sıx qonşuluq mövqeyinin malikdir, həmçinin regionun bir çox ölkələri tranzit yolların üzərində yerləşir. Şərqi Avropa ölkələrindən Polşa, Çexiya, Slovakiya və s. ölkələri ilə qonşuluq mövqeyinə malikdir.
***Doğru cavab:*** 1, 3, 4

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Doğru olan ifadələri müəyyən edin.

1. Qütb enliklərində səthin albedosu çox zəifdir.

2. Antisiklonun mərkəzində yüksək atmosfer təzyiqi yaranır.
3. Buludlu havada sutkalıq temperatur amplitudu daha böyük olur.
4. Havanın temperaturu ilə mümkün buxarlanma tərs mütənasibdir.
5. Qitələrin daxilinə doğru iqlimin kontinentallığı artır.
6. Udulan radiasiyanın miqdarı səth örtüyünün xarakterindən asılıdır.

A) 1, 4, 5 B) 2, 5, 6 C) 2, 4, 6
D) 1, 3, 4 E) 1, 3, 5

***Mövzu:*** Atmosfer. Yerin hava təbəqəsi
***Sinif:*** 9
***Alt-standart:*** 2.1.3.
***İzah:*** Antisiklonun mərkəzində atmosfer təzyiqi normal təzyiqdən (760 mm c.s.) yüksək olur. Qitələrin mərkəzinə doğru iqlimin kontinentallığı artır, nəticədə iqlim kəskin və quraq olur. Səthin xarakterindən, yəni rəngindən, istilik tutumundan asılı olaraq udulan radiasiyanın kəmiyyəti dəyişir.
***Doğru cavab:*** 2, 5, 6

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Xəritə-sxemdə verilmiş iqtisadi rayonların fərqli xüsusiyyətlərini müəyyən edin.



1. Üzümçülüyün inkişafı üçün təbii şəraitə malikdir.
2. Dağ-mədən sənayesi inkişaf etmişdir.
3. Dəmyə əkinçiliyi inkişaf etmişdir.
4. Ərazisindən əsas ixrac neft kəməri keçir.
5. Yanar şist ehtiyatları var.
6. Mülayim-isti iqlim tipi formalaşır.

A) 2, 3, 4 B) 3, 5, 6 C) 1, 4, 6
D) 1, 3, 6 E) 2, 4, 5

***Mövzu:*** Azərbaycan Respublikasının iqtisadi rayonları
***Sinif:*** 11
***Alt-standart:*** 3.2.4.
***İzah:*** Xəritə-sxemdə Gəncə-Daşkəsən və Dağlıq Şirvan iqtisadi rayonları təsvir edilmişdir. Bu iqtisadi rayonlar üçün fərqli xüsusiyyətlərə dağ-mədən sənayesi (Gəncə-Daşkəsən), ixrac neft kəməri (Gəncə-Daşkəsən), yanar şist ehtiyatları (Dağlıq Şirvan) aiddir. Digər xüsusiyyətlər isə ümumidir.
***Doğru cavab:*** 2, 4, 5

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

Azərbaycan Respublikası ərazisinin geosinklinal qurşaqda yerləşməsinin nəticələri:

1. Fəal seysmikliyə malikdir.
2. Relyefdə denudasion düzənliklər üstündür.
3. Relyefin hündürlük amplitudu azdır.
4. Cavan dağlar formalaşır.
5. Uçqun-bənd mənşəli göllər yaranmışdır.
6. Fəaliyyətdə olan vulkanlar mövcuddur.

A) 1, 4, 5 B) 1, 3, 6 C) 2, 4, 5
D) 1, 3, 5 E) 2, 4, 6

***Mövzu:*** Azərbaycanın geoloji quruluşu
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.1.
***İzah:*** Azərbaycan Respublikasının ərazisi Avrasiya litosfer tavası ilə Ərəbistan litosfer tavasının toqquşduğu sərhəddə yerləşir. Nəticədə ölkəmizin ərazisində seysmik proseslər intensiv baş verir. Cavan dağlar (Böyük və Kiçik Qafqaz) və uçqun-bənd mənşəli göllər (Göygöl, Maralgöl) yaranmışdır.
***Doğru cavab:*** 1, 4, 5

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

Ərazisi bütövlükdə fəal seysmik zonada (I), qədim platformada (II), həm platforma və həm də fəal seysmik zonada (III) yerləşən müvafiq dövlətlər:

a. Türkmənistan
b. Belarus
c. İslandiya
d. Kanada
e. Finlandiya

A) I – b, c; II – a, e; III – d
B) I – a, d; II – e; III – b, c
C) I – c; II – b, e; III – a, d
D) I – d; II – a, e; III – b, c
E) I – e; II – b, c; III – a, d

***Mövzu:*** Yerin planetar və geoloji mərhələsi
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.2.
***İzah:*** Litosfer tavalarının sərhədində yerləşən ərazilər fəal seysmik, onların mərkəzində yerləşən ərazilər isə platformalara uyğun gəlir. Fəal seysmik zonada – İslandiya (Orta Atlantik okean geosinklinalı), qədim platformada–Belarus və Finlandiya (Şərqi Avropa qədim platforması), həm platformada, həm də seysmik zonada – Türkmənistan (Turan cavan platforması, Alp-Himalay geosinklinalı) və Kanada (Kordilyer-And geosinklinalı və Şimali Amerika platforması) yerləşir.
***Doğru cavab:*** I – c; II – b, e; III – a, d

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

*Qoruq*
1. Qarayazı
2. İlisu
3. Qaragöl

*Xüsusiyyət*
a. Yerləşdiyi fiziki-coğrafi rayon üçün həm mülayim-isti, həm də soyuq iqlim tipi xarakterikdir.
b. Tektonik çökmə zonasında yerləşir.
c. Ərazidə Mezozoy yaşlı süxurlar üstünlük təşkil edir.
d. Düzən meşə landşaftı mühafizə olunur.
e. Yerləşdiyi təbii vilayətdə maqmatik süxurlar geniş yayılmışdır.

A) 1 – b, c; 2 – d, e; 3 – a
B) 1 – b, d; 2 – a, e; 3 – c
C) 1 – b, d; 2 – a, c; 3 – e
D) 1 – a, d; 2 – c; 3 – b, e
E) 1 – a, c; 2 – e; 3 – b, d

***Mövzu:*** Azərbaycanın torpaq, bitki örtüyü və heyvanat aləmi, landşaft örtüyü, qoruqlar
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.7.
***İzah:*** Qarayazı qoruğu – Kür dağarası çökəkliyi tektonik zonasında yerləşir. Burada şirin yeraltı suların səthə yaxındır və çayların təsiri ilə kiçik ərazidə düzən meşə landşaftı yaranmışdır.
İlisu dövlət qoruğu – Zaqatala-Lahıc fiziki-coğrafi rayonu ərazisində yerləşir, bu fiziki-coğrafi rayonun ərazisində yağıntıları bərabər paylanan mülayim-isti və bütün fəsillərdə bol rütubətli soyuq iqlim tipi yayılmışdır. Zaqatala-Lahıc fiziki-coğrafi rayonu Böyük Qafqazın cənub yamacında yerləşən Baş Qafqaz silsiləsini əhatə edir. Bu silsilədə Mezozoyun Yura dövrünün süxurları geniş yayılmışdır.
Qaragöl dövlət qoruğu – Kiçik Qafqaz vilayətində yerləşir. Bu vilayətdə maqmatik süxurlar üstünlük təşkil edir.
***Doğru cavab:*** 1 – b, d; 2 – a, c; 3 – e

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

Ölkədə əmək ehtiyatlarının 53%-i qeyri-maddi, 32%-i isə maddi istehsal sahələrində çalışırlar. İşsizlərin sayının 4,5 mln. nəfər olduğunu bilərək ölkənin əmək ehtiyatlarının ümumi sayını hesablayın.

A) 8,5 mln. nəfər
B) 15 mln. nəfər
C) 20 mln. nəfər
D) 30 mln. nəfər
E) 6,5 mln. nəfər

***Mövzu:*** Dünya əhalisi
***Sinif:*** 9
***Alt-standart:*** 3.1.1.
***İzah:*** Əmək ehtiyatları iki qrupa bölünür: iqtisadi cəhətdən fəal əhali və işsizlər. Məsələnin şərtinə əsasən əmək ehtiyatlarının ümumi sayını tapmaq lazımdır.
53%+32%=85%
100% - 85%=15%
x----------100%
4,5 mln.------15%
x= 30 mln. nəfər
***Doğru cavab:*** 30 mln. nəfər

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Azərbaycanın şimal və cənub ucqar nöqtələrinin yerləşdiyi iqtisadi rayonların oxşar (I) və fərqli (II) xüsusiyyətlərini müəyyən edin.
1. Filiz faydalı qazıntı yataqları mövcuddur.
2. Mülayim isti iqlim şəraitində meyvəçilik inkişaf etmişdir.
3. Xarici ölkələrlə sərhədi dağ silsilələrindən və çaylardan keçir.
4. Bütün inzibati rayonları xarici ölkələrlə həmsərhəddir.
5. Çayları Kür hövzəsinə aiddir.
6. Tektonik sınmalar boyunca bulaqlar səthə çıxır.

A) I – 1, 3, 5; II – 2, 4, 6
B) I – 3, 4, 6; II – 1, 2, 5
C) I – 1, 2, 3; II – 4, 5, 6
D) I – 2, 4, 5; II – 1, 3, 6
E) I – 2, 3, 6; II – 1, 4, 5

***Mövzu:*** Azərbaycan Respublikasının iqtisadi-coğrafi və geosiyasi mövqeyi
***Sinif:*** 10, 11
***Alt-standart:*** 3.2.1; 3.2.2.
***İzah:*** Azərbaycanın ucqar şimal nöqtəsi Şəki-Zaqatala, cənub ucqar nöqtəsi isə Lənkəran-Astara iqtisadi rayonunda yerləşir. Hər iki iqtisadi rayonun oxşar xüsusiyyətləri aşağıdakılardır:
Mülayim isti iqlim şəraitində meyvəçilik inkişaf etmişdir, xarici ölkələrlə sərhədi dağ silsilələrindən (Baş Qafqaz silsiləsi, Talış dağları) və çaylardan (Qanıx, Astara çayları) keçir. Tektonik sınmalar boyunca bulaqlar səthə çıxır.
Fərqli xüsusiyyətlərə isə filiz faydalı qazıntı yataqları, bütün inzibati rayonları xarici ölkələrlə (Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ) həmsərhəddir, çayları Kür hövzəsinə aiddir fikirləri isə Lənkəran-Astara iqtisadi rayonundan fərqli olaraq Şəki-Zaqatala iqtisadi rayonuna aiddir.
***Doğru cavab:*** I – 2, 3, 6; II – 1, 4, 5

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Sxemi tamamlayın.




A) 1 – uyğur, 2 – bulqar, 3 – qırğızlar, 4 – tıvalılar

B) 1 – bulqar, 2 – uyğur, 3 – qazaxlar, 4 – altaylar
C) 1 – bulqar, 2 – uyğur, 3 – türkmanlar, 4 – qırğızlar
D) 1 – uyğur, 2 – bulqar, 3 – qaqauzlar, 4 – noqaylar
E) 1 – qıpçaq, 2 – bulqar, 3 – krım tatarları, 4 – başqırdlar

***Mövzu:*** Türk dünyasının ümumi coğrafi xüsusiyyətləri
***Sinif:*** 11
***Alt-standart:*** 3.2.3.
***İzah:*** Türk xalqları Altay dil ailəsinin türk dil qrupuna aiddir. Türk dil qrupu 4 qola bölünür:
1. Oğuzlar- qaqauzlar, türkmənlər, türkmanlar və s.
2. Uyğurlar- özbəklər, salarlar, uyğurlar və s.
3. Qıpçaqlar- qırğızlar, qazaxlar, altaylar və s.
4. Bulqarlar-karaimlər, tatarlar, başqırdlar və s.

***Doğru cavab:*** 1 – bulqar, 2 – uyğur, 3 – türkmanlar, 4 – qırğızlar

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Doğru sıraları müəyyən edin.

| *Coğrafi obyekt* | | *Təbii vilayət* | *Tektonik zona* |
|---|---|---|---|
| 1. | Qızılağac milli parkı | Lənkəran | Kür dağarası çökəkliyi |
| 2. | Bozdağ silsiləsi | Kür dağarası çökəkliyi | Kür dağarası çökəkliyi |
| 3. | Hərəmi düzü | Kiçik Qafqaz | Kiçik Qafqaz qalxması |
| 4. | Şərur düzü | Orta Araz | Orta Araz əyilməsi |
| 5. | Qızyurdu zirvəsi | Lənkəran | Kiçik Qafqaz qalxması |

A) 2, 4, 5 B) 1, 2, 5 C) 1, 3, 4
D) 1, 3, 5 E) 2, 3, 4

***Mövzu:*** Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılması
***Sinif:*** 9, 10
***Alt-standart:*** 2.1.7; 2.1.8.
***İzah:*** *Qızılağac milli parkı, Bozdağ silsiləsi, Hərəmi düzü* Kür dağarası çökəkliyi fiziki-coğrafi vilayətində və Kür dağarası çökəkliyi tektonik zonasında; *Şərur düzü* Orta Araz fiziki-coğrafi vilayəti və Orta Araz əyilməsi tektonik zonasında; *Qızyurdu zirvəsi* isə Lənkəran fiziki-coğrafi vilayətində və Kiçik Qafqaz tektonik qalxması zonasında yerləşir.
***Doğru cavab:*** 2, 4, 5

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.
1. 12º c.e., 60º ş.u.
2. 35º şm.e., 85º q.u.
3. 68º c.e., 174º ş.u.

a. İl ərzində gecə və gündüzün uzunluğu arasında vaxt fərqi daha az olur.
b. Yeni ili daha gec qarşılayır.
c. Şimal-şərq küləklərinin təsirinə məruz qalır.
d. Qütb gecə və gündüzləri müşahidə olunur.
e. Yeni sutkanı daha tez qarşılayır.

A) 1 – a; 2 – d; 3 – b, e
B) 1 – b; 2 – a; 3 – c, d
C) 1 – d; 2 – b, e; 3 – a
D) 1 – c, d; 2 – a; 3 – b
E) 1 – a; 2 – b; 3 – d, e

***Mövzu:*** Yer Günəş sistemində
***Sinif:*** 8, 9
***Alt-standart:*** 1.2.2.
***İzah:*** Ekvatorial enliklərə yaxın olan ərazilərdə gecə və gündüz arasındakı vaxt fərqi az olur və verilən məntəqələrdən bu xüsusiyyət 12º c.e., 60º ş.u.-də müşahidə edilir. Beynəlxalq təqvim vaxtının dəyişməsi 180°-lik coğrafi uzunluq xətti hesab edilir və bu meridiandan verilən məntəqələr arasında ən uzaqda yerləşən 35º şm.e., 85º q.u. olduğu üçün yeni il daha gec qarşılayır. Yeni günün başlanması 180°-lik meridiandan hesablandığı üçün şərqdən qərbə doğru yerli vaxt fərqi azalır və verilən məntəqələrdən bu xüsusiyyət 68º c.e., 174º ş.u.-da müşahidə edilir. Qütb gecə-gündüzləri 66,5°-90° coğrafi enlikləri arasında yerləşir və verilən məntəqələrdən bu xüsusiyyət 68º c.e., 174º ş.u.-da müşahidə edilir.
***Doğru cavab:*** 1 – a; 2 – b; 3 – d, e

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Verilən iqlim diaqramlarının aid olduğu məntəqələrin yerləşdiyi ölkələri və onlar üçün səciyyəvi xüsusiyyətləri müəyyən edin.

**I**




**II**






a. İqliminə musson küləklərinin təsiri daha çoxdur.
b. Zeytun istehsalında dünyada qabaqcıl yer tutur.
c. Yağıntıların əksəriyyəti iyun-avqust aylarında düşür.
d. Zəngin dəmir filizi və boksit ehtiyatlarına malikdir.
A) I-2-a; II-3-c
B) I-5-b; II-1-d
C) I-3-b; II-4-c
D) I-5-c; II-3-b
E) I-4-b; II-1-a

***Mövzu:*** İqlim və onun təsərrüfata əhəmiyyəti
***Sinif:*** 9, 10
***Alt-standart:*** 2.1.4
***İzah:*** I sxem şimal yarımkürəsində yerləşən subtropik iqlim qurşağının Aralıq dənizi iqlim tipidir. Bu iqlim tipində yerləşən məntəqələrdə zeytun, sitrus meyvələri, üzüm əkinləri geniş yayılmışdır. Bu iqlim diaqramı xəritə üzərində İspaniyaya uyğun gəlir. İspaniya zeytun yığımına görə dünyada birinci yerdədir.
II sxem isə cənub yarımkürəsinin subekvatorial iqlim qurşağına aiddir. Burada yerləşən ərazilərin rütubətli dövrü əsasən dekabr-fevral aylarında müşahidə olunur və xəritə üzərində Braziliyaya uyğun gəlir. Braziliyada maqmatik süxurlar geniş yayıldığı üçün dəmir filizi və boksit ehtiyatlarına rast gəlinir.
***Doğru cavab:*** I-5-b; II-1-d

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Karpat dağlarına aid olan xüsusiyyətləri müəyyən edin.
1. Yerləşdiyi ölkələrdə əhalinin təbii artımının I tipi səciyyəvidir.
2. Bütünlüklə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ərazisində yerləşir.
3. Avropanın ən yüksək zirvəsi burada yerləşir.
4. Çayları əsasən Atlantik okeanı hövzəsinə aiddir.
5. Ərazisində codyarpaqlı həmişəyaşıl meşələr formalaşır.
6. Litosfer tavalarının konvergent zonasında yerləşir.

***Mövzu:*** Yer səthinin relyefi
***Sinif:*** 8, 9
***Alt-standart:*** 2.1.1.; 2.1.2.
***İzah:*** Karpat dağları Şərqi Avropa regionunda yerləşir. Yerləşdiyi ölkələrdə (Ukrayna, Rumıniya və s.) əhalinin təbii artımının I tipidir. Buradan başlayan çayların eroziya bazisi Atlantik okeanının dənizlərinə aiddir. Afrika və Avrasiya litosfer tavalarının sərhədinə uyğun gəlir.
***Doğru cavab:*** 1, 4, 6

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Doğru olan fikirləri müəyyən edin.
1. Böyük Suayrıcı dağ silsiləsinin qərb yamacı boyunca savanna və seyrək meşələr təbii zonası yayılmışdır.
2. Filippin və Madaqaskar adaları tropik iqlim qurşağında yerləşir.
3. Şərqi Asiyanın ən uzun çayı tranzit çaydır.
4. Pasxa və İslandiya adaları litosfer tavalarının divergent sərhədində yerləşir.
5. Almaniya və ABŞ-də təsərrüfatın IV sektoru inkişaf etmişdir.
6. Yüksək məhsuldarlığa malik əkinçilik istehlak tiplidir.

***Mövzu:*** Materiklərin coğrafiyası
***Sinif:*** 9, 10
***Alt-standart:*** 2.1.2; 2.1.3; 3.2.4
***İzah:*** Avstraliya qitəsinin şərqində – Böyük Suayrıcı dağların qərb yamacında şimaldan cənuba doğru böyük məsafədə savanna və seyrək meşələr təbii zonası yayılmışdır. Litosfer tavalarının kənarlaşma sərhədlərinə divergent sərhədlər olub, vulkan püskürməsi ilə orta okean silsilələri yaranır. Onların ən hündür zirvələri vulkanik adaları əmələ gətirir (Pasxa, İslandiya və s.). İEÖ olan Almaniya və ABŞ-də təsərrüfatın IV sektoru inkişaf etmişdir.
***Doğru cavab:*** 1, 4, 5

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Yarımada → Boğaz → Ada uyğunluğunu müəyyən edin.




***Mövzu:*** Hidrosfer. Yerin su təbəqəsi
***Sinif:*** 7, 8
***Alt-standart:*** 2.1.5.; 2.1.6.
***İzah:*** Torres boğazı Yeni Qvineya adası ilə Keyp-York yarımadasını; Polk boğazı Şri-Lanka adası ilə Hindistan yarımadasını; Hudzon boğazı Baffin Torpağı adası ilə Labrador yarımadasını ayırır.
***Doğru cavab:*** 2, 3, 5

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Miqyası 1:50 000 000 olan xəritədə Bakı şəhəri ilə eyni enlikdə yerləşən B ($20^0$ş.u.) və C ($60^0$ş.u.) məntəqələri arasındakı məsafə 6 sm-dir. Bu məntəqələr arasındakı həqiqi məsafənin xəritədə neçə kilometr təhrif olunduğunu hesablayın.

***Mövzu:*** Kartoqrafik təsvirlər
***Sinif:*** 10
***Alt-standart:*** 1.3.1.;1.3.2.
***İzah:***
1. B və C məntəqələri arasındakı həqiqi məsafəni miqyasa görə hesablayaq:
Miqyas—1 sm 500 km
Xəritədə məsafə- 6 sm
Həqiqi məsafəni aşağıdakı kimi tapırıq:
1 sm----500 km
6 sm---- x km
x= 500x6= 3000 km
2. Məsafəni 40°-lik paralel çevrəsinə görə hesablayaq:
60°-20°=40° (məsafə)
1°----85,4 km
40°---- x km
x= 85,4x40=3416 km
3. Təhrifi hesablayaq:
3416-3000=416 km
***Doğru cavab:*** 416

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

*İqlim tipləri*
1. Qışı quraq keçən mülayim-isti iqlim
2. Yayı quraq keçən mülayim-isti iqlim
3. Qışı soyuq, yayı quraq keçən yarımsəhra və quru çöl iqlimi

*Fiziki-coğrafi rayonlar*
a. Şərur-Ordubad
b. Küdrü-Şirvan
c. Lənkəran
d. Samur-Dəvəçi
e. Qanıx-Əyriçay

***Mövzu:*** Azərbaycan Respublikasının iqlimi
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.3.; 2.1.4.
***İzah:*** Qışı quraq keçən mülayim-isti iqlim- Qanıx-Əyriçay; Yayı quraq keçən mülayim-isti iqlim- Lənkəran; Qışı soyuq, yayı quraq keçən yarımsəhra və quru çöl- Şərur-Ordubad fiziki coğrafi rayonların ərazisində formalaşır.
***Doğru cavab:*** 1-e; 2-c; 3-a

***Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28 – 30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

Turfan çökəkliyindən (-155 m) şimal-qərb istiqamətində quru yolu ilə hərəkət edən müşahidəçi iki qitənin sərhədində yerləşən relyef formasının ən hündür zirvəsinə çatdı. Müşahidəçi çatdığı zirvə ilə hərəkətə başladığı çökəklik arasında 205 mm c.s. atmosfer təzyiq fərqi olduğunu müəyyən etdi və bəzi qeydlər apardı.

Müşahidəçinin hərəkət etdiyi marşrut üzrə apardığı qeydlər aşağıdakılardır:
– marşrut xətti mülayim işıqlanma qurşağı daxilində yerləşir;
– çatdığı relyef formasının geosinklinalın sonuncu inkişaf mərhələsində olması;
– çatdığı relyef formasında maqmatik mənşəli süxurların geniş yayılması;
– marşrut üzrə keçdiyi ölkələrdə türkdilli xalqların yaşaması.

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Mətnə əsasən müşahidəçinin çatdığı zirvənin hündürlüyünü hesablayın (I) və zirvənin yerləşdiyi relyef formasının adını müəyyən edib (II) yazın.
***Mövzu:*** Materiklərin coğrafiyası
***Sinif:*** 9
***Alt-standart:*** 2.1.1; 2.1.2.
***İzah:*** Müşahidəçinin çatdığı zirvə ilə hərəkətə başladığı çökəklik arasında 205 mm c.s. atmosfer təzyiq fərqi olduğunu nəzərə alaraq, barik pillədən istifadə etməklə atmosfer təzyiq fərqini hündürlüyə çevirək:
I. 10 m--- 1mm c.s.
x m ---- 205 mm c.s.
x=205x10=2050 m
x-(-155)=2050 m
x=2050+(-155)= 1895 m
II.Ural dağları
***Doğru cavab:*** I– 1895 m; II– Ural dağları

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Mətnə əsasən müşahidəçinin çatdığı relyef formasına aid olan xüsusiyyətləri müəyyən edib, cədvəldə yazın.
***Mövzu:*** Yer səthinin relyefi və onun təsərrüfat əhəmiyyəti
***Sinif:*** 7, 9 və 10
***Alt-standart:*** 2.1.3.; 2.1.4.
***İzah:*** Dağlar mənşəyinə görə iki qrupa bölünür: tektonik və vulkanik dağlar. Tektonik dağlar isə faylı, qırışıq, qırışıq-faylı dağlar olaraq qruplaşdırılır. Ural dağları yaşına görə qədim dağdır. Qədim dağlar mənşəyinə görə faylı dağlara aiddir. Qədim dağlar Paleozoy erasında baş vermiş Kaledon-Hersin dağəmələgəlmə mərhələsində yaranıblar. Filiz faydalı qazıntılar maqmatik mənşəlidir. Ural dağlarında daha çox dəmir filizi yataqları yayılmışdır.

***Doğru cavab:***

| Relyef formasının mənşəyi | Aid olduğu dağəmələgəlmə mərhələsi | Geniş yayılan maqmatik mənşəli faydalı qazıntı (1 nümunə) |
|---|---|---|
| Tektonik(faylı) | Kaledon-Hersin | Dəmir filizi |

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Mətnə əsasən müşahidəçinin marşrut üzrə keçdiyi ərazilərə aid olan xüsusiyyətləri müəyyən edib, cədvəldə yazın.

***Mövzu:*** Dünyanın siyasi xəritəsi. Biosfer, coğrafi təbəqə, təbii zonalar, onlardan istifadə

***Sinif:*** 7, 9

***Alt-standart:*** 3.2.1.; 2.1.7.

***İzah:*** Mətnə əsasən Turfan çökəkliyi (-155 m) Çinin ərazisində yerləşir. Bu məntəqədən şimal-qərb istiqamətində hərəkət etsək marşrut boyu Qazaxıstan və Rusiyadan keçərək Ural dağlarının ən hündür zirvəsi (1895 m) olan Narodnaya dağına çatmış olarıq. Müşahidəçinin hərəkətə başladığı və çatdığı məntəqələr arasında keçdiyi ərazilər boyu təbii şəraiti bir-birindən kəskin fərqləndiyi üçün müxtəlif təbii zonalar və onların ərazisində formalaşan torpaq tipləri ilə rastlaşmış olur. Belə ki, marşrut boyunca müşahidəçi Çin və Qazaxıstanda səhra və yarımsəhralarda boz, boz-qonur; Qazaxıstan və Rusiyada çöl və meşə-çöllərdə şabalıdı, qara torpaqlar; Rusiyada enliyarpaqlı meşələrdə qonur, iynəyarpaqlı meşələrdə (tayqa) podzol; meşə-tundra və tundrada isə tundra-qleyli torpaqlar yayıldığının şahidi olmuşdur.

***Doğru cavab:***

| Keçdiyi ölkələr (ardıcıl) | Keçdiyi təbii zonaları (ən azı üçünü) ardıcıl yazın | Keçdiyi təbii zonalar üzrə yayılan torpaq tiplərini (ən az üçünü) ardıcıl yazın |
|---|---|---|
| Çin<br>Qazaxıstan<br>Rusiya | səhra və yarımsəhralar , çöllər,meşə-çöl, enliyarpaqlı və qarışıq meşələr ,iynəyarpaqlı meşələr (tayqa), meşə- tundra, tundra | boz, boz-qonur, qara, şabalıdı, qonur, podzol, tundra-qleyli |